# “Zəhmətkeş qarışqa”

## Leyla Zeynalova: “Gərək beynəlxalq müsabiqələrdə başqalarından beş baş üstün olasan ki, sənə göz yuma bilməsinlər”



**Müsahibim uzun hörüklü, iri qara gözlü, səhnədə öz həyəcanını cilovlamağı bacaran Prezident təqaüdçüsü, beynəlxalq müsabiqələr laureatı Leyla Zeynalovadır. Leyla özünə söz verib ki, sevimli qəhrəmanı Ovod kimi güclü olacaq.**

Xəyalə RƏİS

14 yaşlı Leyla Zeynalova fortepiano üzrə Bülbül adına Orta İxtisas Məktəbinin 9-cu sinfində təhsil alır. O, müəllimləri və yoldaşlarının sevimlisidir. Leyla 2008-ci ildə peşəkar musiqiçi olmaq arzusu ilə bu məktəbə gəlib və o vaxtdan əməkdar müəllim Dilarə Mirzəquluyevanın sinfində fortepiano ixtisası üzrə təhsil alıb. Çox maraqlıdır ki, Leyla musiqi təhsili aldığı illər ərzində bir çox konsertlərdə fortepiano ilə paralel skripkada da uğurlu çıxışlar edib, respublika müsabiqəsi laureatı olub. Skripka üzrə o, əməkdar müəllim Fatimə İdyatulinanın sinfində təhsil alıb.

2014-cü ilin aprel ayında Tbilisi Dövlət Konservatoriyasının böyük zalında solo proqramla çıxış edərkən, Leylanın hər iki alətdə məharətlə ifa etməsi tamaşaçıları çox heyrətləndirmişdi. Onun uğurlu ifaları haqqında biz Bülbül adına Orta İxtisas məktəbindən reportaj hazırlayarkən musiqi işləri üzrə direktor müavini Aytən xanım danışmışdı. Aytən xanım Leylanın qardaşı, vaxtilə həmin məktəbdə təhsil almış Rüstəmin xaricdə qazandığı uğurlardan da ağızdolusu bəhs etmişdi.

Bir ailədə doğulub tərbiyə almış bu iki istedadlı gənc neçə illərdir ki, Avropa ölkələrində keçirilən bir çox beynəlxalq festival və müsabiqələrdə Azərbaycanı layiqincə təmsil edir, öz yüksək səviyyəli çıxışları ilə möhtəşəm zallarda tamaşaçıların sürəkli alqışlarını qazanırlar. Ancaq bu müvəffəqiyyət heç də asan başa gəlmir, onun arxasında çox böyük zəhmət durur. Bunu Rüstəmlə Leylanı tanıyan hər kəs yaxşı bilir. Yəqin elə buna görədir ki, Leylanın anası Mehparə xanım arabir qızını əzizləyərək, ”mənim zəhmətkeş qarışqam” deyir.

**- Başlayaq pianinoya olan marağından. Nə zamandan hiss etdin ki, pianoçu olmalısan?**

- Bildiyiniz kimi, qardaşım Rüstəm Zeynalov da pianoçudur. O, hazırda Sankt-Peterburq Dövlət Konservatoriyasında təhsil alır. Uşaq yaşlarından evdə klassik musiqi eşitmişəm. Qardaşımla mən ilk musiqi təhsilimizi Bakıxanov qəsəbəsində yerləşən 4 nömrəli Uşaq Musiqi Məktəbində almışıq, ilk müəllimimiz isə Cənnət xanım olub. Bizdə musiqi istedadı olduğunu ilk dəfə Cənnət müəllim hiss edib. Sonra isə Rüstəmlə mən təhsilimizi Bülbül adına məktəbdə davam etdirdik.



**- Qardaşınla hər hansı bir əsəri birgə ifa edirsənmi?**

- Hərdən olur. Çox vaxt mən ifa edəndə, o, nöqsanlarımı deyir, məsləhət verir. Bəzən aramızda mübahisə düşür (gülür). Hər ikimizin əsərləri böyük olduğu üçün çox iş tələb edir. Buna görə mənzilimizin çox kiçik olmasına baxmayaraq, iki otaqda pianino var.

**- Bir evdə iki pianoçu varsa, demək ki, o evdən daim musiqi səsi gələcək. Belə olan halda, qonşular sizdən şikayət edirlərmi?**

- Qonşularımız çox yaxşı insanlardır. Məhəlləmizdə bilirlər ki, biz musiqi ilə məşğuluq. Hətta elə olub ki, bizim evdə sakitlik olduğunu görüb, anama zəng edib maraqlanıblar ki, uşaqlar niyə çalmır...

**- Gələcək hədəflərin nələrdir?**

- Gələcəkdə yüksək səviyyəli musiqiçi olmaq istəyirəm. Peşəkar pianoçu olmaq, respublikamızı dünyada təmsil etmək ən böyük arzumdur. Qarşıma məqsəd qoymuşam ki, ali təhsilimi Avropa və ya Rusiyada davam etdirim. İnandığım, peşəkar musiqiçilərdən ustad dərsləri almağı düşünürəm. Hədəflərim böyükdür.

**- Musiqiçi olmaq qərarı verən hər bir adam bu sahənin gəlirli olmadığını bilir. Bu sənəti seçərkən bütün bunları gözdən keçirdinmi?**

- Ola bilsin, bu sənətin əziyyəti qazancından çoxdur. Ancaq bu, hər yerdə belə deyil. Əgər sən doğrudan da yaxşı pianoçusansa, sənə hər zaman tələbat olacaq. Burada həm istedad, həm zəhmət, həm də qismət rol oynayır. Hansısa bir festivala gedəndə, 200 faiz hazır olmalısan ki, qarşına çıxan rəqiblərə qalib gələsən. Təhsilimi bitirdikdən sonra müəllim kimi də fəaliyyətimi davam etdirə bilərəm. Savadlı, peşəkar müəllimə hər zaman tələbat var.

**- Böyük səhnələrə çıxanda həyəcan keçirirsənmi?**

- Əlbəttə, hər dəfə səhnəyə çıxanda həyəcan keçirirəm. Həyəcan məsuliyyət deməkdir. Müsabiqələrdə daha həyəcanlı oluram. Çünki mən vətəndən kənarda ölkəmi təmsil edirəm. Orada məktəbimi, müəllimlərimdən öyrəndiklərimi nümayiş etdirirəm. Uğur qazandıqdan, az-çox tanındıqdan sonra sonra hamı səndən nəticə gözləyir. Daha çox uğur, daha gözəl əsərlər... Məsuliyyət hissi insana həyəcan gətirir. Ancaq buna baxmayaraq, heç zaman həyəcan mənim işimə mane ola bilməyib. Məktəbdə müəllimlərim, dostlarım mənə inanır, məndən böyük nailiyyətlər gözləyirlər.



**- Bəs səni yaşıdlarından fərqləndirən nə oldu?**

- Çox çalışmağım. Mən günümün çoxunu ifa etməklə keçirirəm. Müsabiqələrə gedən ərəfələrdə isə gündə 8-9 saat çalışıram. Çünki öz işinin peşəkarı olmaq üçün çox çalışmalısan. Qatıldığım müsabiqə və festivallar çox yüksək səviyyəli olub. Orada zəif ifaçılar yer ala bilmir. Orada gərək beş baş digərlərindən üstün olasan ki, sənə göz yuma bilməsinlər. Bunun üçün də mən əlimdən gələni edirəm.

İlk dəfə beynəlxalq müsabiqəyə 2014-cü ildə qatıldım. O zaman 12 yaşım var idi. F.Şopenin yaradıcılığına həsr olunmuş müsabiqə Estoniyanın Narva şəhərində keçirilirdi. Qardaşım Rüstəm 2012-ci ildə həmin müsabiqənin Qran Pri mükafatı laureatı olmuşdu. Həmin müsabiqədə mən ikinci yer tutmuşdum. Keçən il Tallində ”Young musician - Tallinn 2015” adlı beynəlxalq müsabiqədə iştirak etdim. Orada Qran Pri mükafatına layıq görüldüm. Tallində birinci turda solo çaldım, ikinci tur orkestrlə. Bir həftə əvvəl Belçikada keçirilən ”13th rencontres Internationales des Jeunes Pianistes” beynəlxalq müsabiqəsində I yerə layiq görüldüm. Qeyd edim ki, bu müsabiqə EPTA - Avropa Fortepiano Müəllimləri Assosiasiyası tərəfindən təşkil edilmişdi. Müsabiqədə 21 ölkədən 54 gənc pianoçu iştirak edirdi. Mənim üçün çətin məqam odur ki, müsabiqələrə hər kəs müəllimi ilə qatılır. Mən isə müsabiqələrə müəllimsiz gedirəm.

**- Pianoda ifa edərkən nə düşünürsən?**



- Müsabiqələrdə daha çox həyəcan keçirirəm və ifa etdiyim musiqini düşünürəm. Evdə isə çox sərbəst oluram, rahatlaşıram. Musiqi insanı çox sakitləşdirir.

**- Ən çox sevdiyin bəstəkarlar və əsərlər hansılardır?**

- Azərbaycan bəstəkarlarından Qara Qarayev, Fikrət Əmirov, Vaqif Mustafazadə. Ümumiyyətlə, Azərbaycan musiqisini çox sevirəm. Bizim çox gözəl bəstəkarlarımız var. Onların əsərlərini sevərək ifa edirəm. Xarici bəstəkarlardan isə Bethoven, Prokofyev və Şopen. Prokofyevi çox sevirəm. Operaları da çox sevirəm. Anam məni ötən il Moskvada Böyük Teatrda ”Yevgeniy Onegin” tamaşasına baxmağa aparmışdı. Bundan başqa, Sankt-Peterburqda Mariinsk Teatrında Şostokoviçin ”Ledi Maqbet”əsərini izləmişdim. O anları heç vaxt unuda bilmərəm.

**- Nəzəriyyə ilə aran necədir? Ümumiyyətlə, məktəb dərslərini necə oxuyursan?**

- Nəzəriyyəni sevirəm. Ən çox sevdiyim fənn musiqi ədəbiyyatı və harmoniyadır. Mənim üçün əsas musiqidir. İngilis dili və riyaziyyat fənlərini də çox sevirəm. Məktəbimizin yanında Maksim Qorki adına kitabxana var. Mütəmadi olaraq kitabxanaya gedir, imkan tapdıqda bədii kitab oxuyuram. Evdə vaxtım olmadığı üçün daha çox metroda, nəqliyyatda mütaliə edirəm.

**- Pianinodan başqa hansı musiqi alətini sevirsən?**

- 6 il skripka ilə məşğul olmuşam. Skripkadakı ifama görə mükafat da qazanmışam. Xaricdə tanınmış ifaçılardan ustad dərsləri almışam. Həm pianinonu, həm skripkanı davam etdirmək mənim üçün çox çətin idi. Belə qərar verdik ki, pianinonu əsas, skripkanı isə fakültativ dərs kimi seçim. Hesab edirəm ki, pianino ilə daha çox inkişaf edə bilərəm. Anam qardaşıma da, mənə də dəstək olur, əziyyətimizi çəkir. Həyatımızın bütün mərhələlərində yanımızda olur.